# ŞEYDA XANIMIN "MUSİQİ GÜNDƏLİYİ"



*Müzahim İSMAYILZADƏ,*
*Tübingen-Bakı*

### *"ŞƏRQ ƏHVALATI"NDAN "NOSTALJİ"YƏDƏK*

**...Görüşümüz Dünya Azərbaycanlılarının Beynəlxalq Həmrəylik Günü və Yeni ilin ərəfəsinə təsadüf etdi. Özü də təsadüfən! Eşidəndə ki, Tübingen şəhərində yaşayan Məmmədovlar ailəsinin qonağı olacağıq, çox sevindim. Almaniyanın bu cənub şəhərində soydaşlarımızın olması çox sevindirici idi. Nekar çayının sahilindəki gözoxşayan ikimərtəbəli binanın həyətində bizi İlqar müəllim qarşıladı. Evin səliqəli otaqlarında əsl Azərbaycan abu-havası hiss olunurdu. Evin xanımı Şeyda xanımın təbəssümlü üzü,çöhrəsi, Bakıdan təzəcə qayıtmış Tibb Universitetinin tələbəsi, evin sonbeşiyi Nailənin qulluğu əhvalımıza yeni müsbət çalarlar qatdı.**

### *TANITMA*

...İlqar Məmmədov və Şeyda Məmmədova! Hər ikisi Bakı şəhərində anadan olub. Bakı Dövlət Universitetinin kimya fakültəsində təhsil alıblar. 1991-ci ildə universiteti müvəffəqiyyətlə başa vurub, Neft və Kimya Prosesləri Elmi Tədqiqat İnstitutunda əmək fəaliyyətinə başlayıblar. İlqar müəllim elmi işini uğurla başa çatdıraraq kimya elmləri namizədi elmi dərəcəsinə layiq görülüb. Şeyda xanım isə institutda çalışmaqda davam edib, 1998-ci ildə onların həyatında mühüm hadisə baş verir. İlqar müəllim və Şeyda xanım Tübingen universitetində çalışmaq üçün dəvət alır və həmin ildə Məmmədovlar ailəliklə Almaniyaya köçürlər.

- İlk vaxtlar çətinliklərimiz çox olurdu. Yeni mühit, yeni iş şəraiti. Uşaqların bağça, məktəb problemləri. Ancaq əsas odur ki, bir işə ürəklə, həvəslə girişə və mübariz olasan. Bu keyfiyyətləri özündə cəmləsən, bütün sədləri asanlıqla aşa bilərsən. İlqarla birlikdə bir müddət çalışdıq və sonra məcburiyyət qarşısında mən işimi yarımçıq qoyub, ailənin problemləri ilə məşğul oldum.

İşgüzar və yenilikçi Şeyda xanım söhbətini davam etdirərək qeyd etdi ki, qızlarım Nərminə və Nailənin təhsilinə diqqət, qayğı valideyn kimi birinci dərəcəli əhəmiyyət kəsb edirdi. İlqarla birlikdə bunun öhdəsindən gəldik. Nərminə ali təhsilini başa vurub, Nailə isə hələ tələbədir...

### *MUSİQİ MÜƏLLİMƏSİ*

Şeyda xanım danışır: İşləri qaydasına saldıqdan sonra boş vaxtlarım qalırdı və mən də hansısa bir işlə məşğul olmağı planlaşdırdım. İnstitutda vaxt məsələsi çətinlik törətdiyindən ora qayıtmadım. Qərara aldım ki, musiqi sahəsində özümü sınayım. Bakıda orta məktəb illərində fortepiano üzrə musiqi təhsili almışdım.

Musiqi müəlliməsi kimi işləməyə niyə qərar verdim? Bu da təsadüfi deyil. Evimizdə pianino var və qızlarıma bu musiqi alətində çalmağı öyrədirdim. Qızlarım da məktəbdə, digər tədbirlərdə fortepianoda əsərlər çalaraq tədbirlərə əlavə gözəl çalarlar bəxş edirdilər. Sinif yoldaşları, onların valideynləri qızlardan soruşurdular ki, bunları haradan, kimdən öyrənmisiniz, məni nişan verirdilər. Elə oldu ki, onlar mənə müraciət etdilər ki, bəs bizim uşaqlara da musiqi təhsili verə bilərsinizmi? Tərəddüd etmədən razılıq verdim. İlk vaxtlarda şagirdlərim az idi, bu təbii idi və ildən-ilə onların sıraları getdikcə artmağa başladı.

Maraqlıdır ki, Şeyda xanımın şagirdlərinin arasında təkcə orta məktəb şagirdləri deyil, yetkinlik yaşına çatanlar, hətta yaşlılar da var.

### *MUSİQİ STUDİYASI*

Şeyda xanım özünün müstəqil "Musiqi studiyası"nı yaradır və fəaliyyətini uğurla davam etdirir. Studiyanın fəaliyyəti bizim musiqi məktəblərindən



tamam fərqli formadadır.

Şeyda Məmmədova:

- On beş ilə yaxındır ki, fəaliyyət göstərirəm və şagirdlərimin orta yaşlı, gənc olmasını nəzərə alaraq onların hər birinə ayrıca proqram tərtib edirəm. Bu zaman şagirdin fərdi qabiliyyəti, bacarıq və istedadı, qabiliyyəti nəzərə alınır. Yoxsa bütün hamı üçün eyni proqram keçmirəm.

Mənim müəllim kimi əsas məqsədim ondan ibarətdir ki, şagirdlərimə fortepiano alətində müstəqil çalmağı öyrədim. Onların maraqlarını nəzərə almağım vacib məsələlərdəndir. Qeyd etdiyim kimi, pyeslərin seçimlərində onların maraq və bacarıqları ilk növbədə nəzərdə tutulmalıdır.

### *"MUSİQİ GÜNDƏLİYİ"*

Musiqini hamı sevir - hər kəs öz duyğuları, ruhu, məhəbbəti çərçivəsində.

Musiqisiz həyat olarmı? Dünyaya göz açanda beşiyimiz başında ana laylasını dinləyirik və bu layladan gözəl musiqini təsəvvür etmirəm. Gözünü ana laylası ilə dünyaya açan insan nəğməkar olmalıdır. Həyatımız enişli-yoxuşlu, daşlı kəsəklidir. Sevincli, kədərli anlar yaşayırıq. Bu həyəcan bəzən musiqi notlarına köçürülür.

Mənim həyatımda da belə anlar çox olub və mən o notları cəmləşdirib pyeslər yazmışam. Romantik pyeslər! Fortepiano üçün. Bu pyeslər şərq üslubunda öz əksini tapıb və deyilənlərə görə insan qəlbini fəth edə bilir. Bu, mənim yox, romantik pyesləri dinləyənlərin fikridir! Mən bunu hiss etmir və adi qarşılayıram, onda rahatlıq tapıram ki, qəlbimin duyğularını notlara köçürə bilirəm.

Mən bəstəkar deyiləm, ancaq yazdıqlarım romantik pyeslərlə özümü ifadə etməklə qürurluyam.

Dinləyənlər, bu sahənin mütəxəssisləri mənə məsləhət gördülər ki, pyeslərimi nota köçürdüm və hətta kitab çap etdirim. Ən çox da ailə üzvlərim! Qərarlaşdıq. Ən böyük yardımçım isə Nərminə və Nailə oldular. Kitabın tərtibatını Nərminə həll etdi... Zənnimcə, yaxşı da alınıb.

Burada kitaba münasibət başqadır. Hansı mənada? Tutaq ki, bir ailənin üzvü mənim şagirdim olur, kitabımı alır. Bir neçə ildən sonra ailənin digər kiçik üzvü də mənim şagirdim olur. O da həmin kitabı alır, düşünmür ki, bu kitabdan evlərində var.

"Şərq əhvalatı" romantik pyesi. Bu əsəri yazanda gərgin və həyəcanlı anlar idi. Elə hadisələr baş verirdi ki, minlərlə, milyonlarla insanın həyatında dəyişikliklər baş verirdi. Mən də bu dəyişikliyin içində idim... Bakıda!..

Sonra hadisələr məcrasını dəyişir. Nəticədə "Olmuş əhvalat", "Sentimental xatirələr", "Nostalji", "Həyat davam edir", "Dünya uşaqların gözü ilə", "Kəpənəklərin rəqsi"... meydana gəldi.

### *PAYIZ*

Şeyda xanım ömrünü payız fəsli ilə müqayisə edir. Deyir ki, payızın əvvəli güllü-çiçəkli, yamyaşıl olur. Sonra hər şey saralır, xəzana dönür. Yarpaq tökümü! Onda öz-özünə düşünür və suallar qarşısında qalırsan.

- Sən həyatı necə yaşamısan?
- Sən həyatda nələr etmisən?
- Səndən sonra həyatda nələr qalır?

Bu düşüncələrin nəticəsi "Keçmişdə", "Yarpaq tökümü", "Xatırla", "Şənlik rəqsi" romantik pyeslərinin yazılması oldu.

Zaman keçdikcə, əsərlərimin siyahısı artacaq.

Hər anın öz hökmü, öz duyğu və düşüncələri olur. Yəqin ki, könül çırpıntılarım yenə də olacaq və notlara köçürüləcək.

### *"AZƏRBAYCAN, AZƏRBAYCAN!"*

Tübingen şəhəri Almaniyanın cənubunda Fransa və İsveçrə ilə sərhəddə yerləşir. Hər iki dövlətlə 120-150 kilometr ara məsafəsi var. Yaşıllıqlarla, dağlarla əhatə olunub.




- Bir an da olsa doğma Vətənimizi yaddan çıxarmırıq. Azərbaycanla nəfəs alırıq. Hər gün olmasa da, tez-tez əlaqə saxlayır, qohumlarla, dostlarla danışırıq. Azərbaycandakı yeniliklər, inkişaf bizi çox sevindirir. Bunlarla fəxr edirik. Ona da möhkəm inamımız var ki, Qarabağ məsələsi gec-tez öz həllini tapacaq. İşğal olunmuş torpaqlarımız düşmən tapdağından azad olacaq!

Şeyda xanımın çılğın və emosional çıxışı təsirli və inamlı idi! Sükutu yenə də musiqi müəllimi pozur.

- Azərbaycan zəngin bir diyardır. Sərvəti ilə, ədəbiyyatı, incəsənəti, qədim tarixi, mədəniyyəti və musiqisi ilə! Bu torpaq neçə dahilər yetişdirib? Musiqimizin Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev, Arif Məlikov kimi nəhəngləri var. Burda şagirdlərimə onların əsərlərindən də öyrədir, məlumatlar verirəm. Musiqi beşiyimiz Qarabağdan söhbət edirəm.

Zarafatla əlavə edir ki, belə də olmalıdır, bir tərəfdən əslən qarabağlıyam axı...

Sonra Şeyda xanım fortepiano arxasına keçir, xalq, lirik mahnılardan ibarət popurri ifa edir. Hamımız xorla "Azərbaycan!" mahnısını ifa edirik.

**El bilir ki, sən mənimsən,**
**Yurdum, yuvam məskənimsən.**
**Anam doğma Vətənimsən,**
**Ayrılarmı könül candan,**
**Azərbaycan! Azərbaycan!**

Səsimiz Nekar çayının ləpələrinə dəyib ətrafa səpələnir.

**P.S. Bu günlərdə Tübingen şəhərinin mədəniyyət ocaqlarından birində Şeyda xanımın və şagirdlərinin konserti keçirildi. Konsertə maraq dairəsi böyük idi. Yüzlərlə alman Şeyda xanımın, digər iştirakçıların ifalarını alqışlarla qarşıladılar.**

**Bu, Şeyda xanımın gərgin zəhmətinin, bacarıq və peşəkarlığının, həvəs və istəyinin nəticəsi idi.**